AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi

# HEYVANDARLIQ STATİSTİKASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**01.05.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rashadb@azstat.org, +994 12 538 73 57

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş...................................................... 3
2. Aktuallıq............................................................................................... 5
3. Dəqiqlik................................................................................................. 6
4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 7
5. Bərabər giriş və aydınlıq.......................................................................... 9
6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................. 11
7. Çıxış keyfiyyət komponentləri arasında seçim.......................................... 11
8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 12
9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük...................................... 12
10. Məxfilik, şəffaflıq və təhlükəsizlik.......................................................... 13
11. Yekun.................................................................................................... 13

## 1. Statistik prosesə və məhsullara giriş

***Müşahidənin qısa təsviri***

Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi kənd təsərrüfatı heyvanlarının (mal-qara və quşların) sayı və heyvandarlıq məhsullarının istehsalı üzrə müşahidələr aparır. Müşahidələr mütəmadi olaraq hər il təşkil olunur.

Müşahidənin aparılması üçün kənd təsərrüfatı müəssisə və təşkilatlardan, yerli icra hakimiyyəti başçısının kənd (şəhər, qəsəbə) inzibati ərazi dairəsi üzrə nümayəndəliklərindən alınan hesabat məlumatlarından, eləcə də fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında keçirilmiş seçmə müayinələrin məlumatlardan istifadə olunur. Bu halda ölkə və regionlar səviyyəsində, eləcə də təsərrüfat kateqoriyaları üzrə əsas aşağıdakı məlumatlar əldə edilir: iribuynuzlu mal-qaranın, o cümlədən inək və camışların, qoyun və keçilərin, donuzların, quşların sayı, istehsal olunan ət, süd, yumurta və yunun miqdarı.

Bu göstəricilər kənd təsərrüfatı statistikasının göstəricilər sisteminə aid olmaqla heyvandarlığın inkişafını xarakterizə edir. Eyni zamanda, heyvandarlıq statistikasına dair göstəricilərdən heyvandarlıq və ümumilikdə kənd təsərrüfatı üzrə ümumi məhsulun hesablanmasında, ərzaq balanslarının hazırlanmasında istifadə olunur.

***Müşahidə vahidləri***

Heyvandarlıq statistikasına dair məlumatlar 24-kt №-li "Heyvandarlığın vəziyyəti haqqında" illik hesabat forması və 24-a-kt №-li "Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında heyvandarlığın vəziyyəti haqqında" rüblük müşahidə forması vasitəsilə toplanılır.

24-kt №-li "Heyvandarlığın vəziyyəti haqqında" hesabatı mülkiyyət formasından asılı olmayaraq mal-qarası və quşları olan bütün kənd təsərrüfatı müəssisə və təşkilatları, o cümlədən dövlət və qeyri-dövlət müəssisələri, kollektiv-birgə müəssisələr, kooperativlər, quşçuluq fabrikləri, damazlıq təsərrüfatlar və sair özəl təşkilatlar tərtib edirlər. 2012-ci ilin yekunları üzrə hesabatı 590 statistik vahid tərtib etmişdir.

24-a-kt №-li müşahidə forması yerli statistika orqanlarının işçiləri tərəfindən fərdi

sahibkar, ailə kəndli və ev təsərrüfatlarında heyvandarlığın vəziyyəti haqqında seçmə müayinənin keçirilməsi zamanı tərtib edilir. Sorğu rübdə bir dəfə keçirilir. Sorğuya cəlb ediləcək təsərrüfatların siyahısı Statistik Məlumatların Elmi-Tədqiqat və Layihə-Texnoloji Mərkəzi tərəfindən seçilir. Seçmə zamanı 2005-ci ildə keçirilmiş kənd təsərrüfatının siyahıyaalınmasının məlumat bazasından istifadə olunur. Müayinə hər rayonda 50 təsərrüfat olmaqla cəmi 3000 fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatında aparılır. Seçməyə düşmüş təsərrüfatların siyahısı ilin əvvəlində yerli statistika orqanlarına sənəd dövriyyəsi vasitəsilə ötürülür. Yerli statistika orqanlarına düşən yükü azaltmaq məqsədilə rayon üzrə təsərrüfatlar 3 kənddən seçilir.

***Əhatə***

Heyvandarlıq statistikasına dair müşahidələr mal-qarası və quşları olan kənd təsərrüfatı müəssisə və təşkilatlarında başdan-başa, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında isə seçmə qaydada aparılır.

**Əsas göstəricilər:**

- İribuynuzlu mal-qaranın sayı;
- İnək və camışların sayı;
- Qoyun və keçilərin sayı;
- Donuzların sayı;
- Quşların sayı;
- Yumurtlayan toyuqların sayı;
- Ət istehsalı (kəsilmiş çəkidə);
- Süd istehsalı (fiziki çəkidə);
- Yumurta istehsalı;
- Yun istehsalı;
- Bir inək və camışdan orta illik süd sağımı;
- Bir qoyundan orta illik yun qırxımı;
- Bir toyuqdan orta illik yumurta verimi.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rashadb@azstat.org, +994 12 538 73 57

**Müşahidə forması**

Dövlət Statistika Komitəsinin 06 iyul 2011-ci il tarixli, 23/11 nömrəli sərəncamı ilə təsdiq olunmuş 24-kt №-li "Heyvandarlığın vəziyyəti haqqında" illik hesabat forması bütün kənd təsərrüfatı müəssisələrinə göndərilir. Hesabatın düzgün tərtib olunması məqsədilə statistik vahidlər hesabatın tərtib olunmasına dair metodoloji izahatla təmin edilir. Yerli statistika orqanları tərəfindən fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında heyvandarlığın vəziyyəti haqqında seçmə müayinə keçirilərkən eyni sərəncamla təsdiq olunmuş 24-a-kt №-li rüblük müşahidə formasından istifadə olunur.

## 2. Aktuallıq

Hazırda, heyvandarlıq statistikasına dair hesabatlarda Məhsul Növləri Təsnifatının (MNT) 3-cü versiyasından istifadə olunur. Heyvandarlıq statistikasında aşağıdakı anlayışlardan istifadə olunur:

İribuynuzlu mal-qaraya – inək və camış naxırı, o cümlədən inək və camışlar, törədici buğalar, iş öküzləri və kəlləri, kökəltmədə olan mal-qara, düyələr, cöngələr, kəlçələr, dişi və erkək danalar, buzovlar və balaqlar aid edilir.

İnək və camışlara - əsas naxırın südlük və ətlik istiqamətli inək və camışlar, sağmal, qısır və dayə inək və camışlar daxil edilir. Bu zaman, kökəltməyə qoyulmuş inək və camışlar nəzərə alınmır.

Quşların sayına – təsərrüfatlarda olan bütün cavan və yaşlı ev quşları, o cümlədən toyuq və xoruzlar, qazlar, ördəklər və hind toyuqları aid edilir.

Yumurtlayan toyuqlara – yumurta alınıb-alınmamasından asılı olmayaraq bütün yaşlı toyuqlar aid edilir. Yumurtalıq cinsindən olan cavan toyuqlar 150 günlük, ətlik və ətlik-yumurtalıq cinsdən olan cavan toyuqlar isə 180 günlük olanda yumurtlayan toyuqlar qrupuna daxil edilir.

Ət istehsalına (kəsilmiş çəkidə) bütün növ mal-qara və quşların əti, piyi və içalatı aid edilir. Məlumatlara həm kəsim üçün satılmış, həm də təsərrüfatdaxili kəsilmiş mal-qara və quşlar daxil edilir.

Süd istehsalı (fiziki çəkidə) inək, camış, qoyun və keçilərdən faktiki süd sağımını xarakterizə edir; bura satılmış və təsərrüfatlarda istifadə edilmiş, buzov və balaqların içirdilməsinə və sair məqsədlərə sərf olunmuş südün hamısı daxildir.

Yun istehsalı satılması və təsərrüfatda başqa məqsədlər üçün istifadə edilməsindən asılı olmayaraq, qoyun və keçilərdən qırxılmış bütün yunları, keçi qəzilini, habelə dəvə yununu əhatə edir. Gön emalı sənayesində dəridən qırxılmış yun bu göstəriciyə daxil edilmir. Bütün yunlar fiziki çəkidə, qırxımdan sonra yuyulmamış halda uçota alınır.

Yumurta istehsalı cücə istehsalına (inkubasiyaya və s.) istifadə edilənlər də daxil olmaqla, bütün növ ev quşlarından alınmış yumurtanı əks etdirir.

Bir inək və camışdan orta illik süd sağımı – il ərzində inək və camışlardan sağılan südün miqdarını ilin əvvəlinə mövcud olan inək və camışların sayına bölməklə hesablanır. Kənd təsərrüfatı müəssisələrində kökəlmədə olan ana malın baş sayı və onlardan sağılmış süd nəzərə alınmır.

Bir qoyundan orta illik yun qırxımı - il ərzində bütün qoyunlardan qırxılmış yunun miqdarını və ilin əvvəlinə mövcud olan qoyunların sayına (keçən ilin oktyabr-dekabr aylarında doğulmuş quzuları çıxmaqla) bölməklə hesablanır.

Bir toyuqdan orta illik yumurta verimi - il ərzində ana toyuqlardan alınmış yumurtaların sayını yumurtlayan toyuqların orta illik sayına bölməklə müəyyən edilir. Bu zaman cavan quşlardan alınmış yumurtaların sayı nəzərə alınmır.

## 3. Dəqiqlik

Heyvandarlıq statistikası sahəsində qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi ilk növbədə yerli statistika orqanlarından qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində metodoloji işləri davam etdirir. Yerli statistika orqanlarının əməkdaşları üçün mütəmadi olaraq seminarlar təşkil edilir və onlar tətbiq edilən metodoloji yeniliklər barədə operativ olaraq məlumatlandırılır.

Hesabat məlumatlarının düzgünlüyünə nəzarət etmək məqsədilə hesabatın elektron variantında məntiqi və riyazi nəzarətlər qoyulmuşdur. Eyni zamanda hesabat yoxlanarkən mal-qara və quşların orta məhsuldarlıq normalarından (bir baş inək və camışdan orta illik süd sağımı, bir baş qoyundan orta illik yun qırxımı, bir toyuqdan orta illik yumurta verimi) da istifadə olunur. Hesabatda səhvlər aşkar edildikdə hesabatı təqdim edənə (müəssisə və təşkilatlara) və yerli statistika orqanlarına məlumat verilir.

***D4. Sorğuya cavab vermiş vahidlərin xüsusi çəkisi (hesabat intizamı)***

***Cədvəl № 1***

| | 24-kt №-li hesabat forması üzrə | | 24-a-kt №-li müşahidə forması üzrə | |
|---|---|---|---|---|
| | **2011** | **2012** | **2011** | **2012** |
| Məlumatların toplanması üçün müəyyənləşdirilmiş statistik vahidlərin siyahısındakı vahidlərin sayı | 623 | 590 | 3 000 | 3 000 |
| Hesabatı təqdim etmiş statistik vahidlərin sayı | 623 | 590 | 3 000 | 3 000 |
| Hesabatı təqdim etmiş statistik vahidlərin xüsusi çəkisi (%) | 100 % | 100 % | 100 % | 100 % |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin “Yerli statistika orqanları üçün statistik işlər proqramı”na əsasən 24-kt №-li hesabat forması kənd təsərrüfatı müəssisələri tərəfindən yanvar ayının 5-dək yerli statistika orqanlarına təqdim olunur. Yerli statistika orqanları hesabatları yoxladıqdan sonra xüsusi proqram əsasında kompüterə daxil edərək elektron formada yanvar ayının 10-dək Baş Hesablama Mərkəzinə ötürür. Bundan başqa, yerli statistika orqanları 24-a-kt №-li müşahidə forması üzrə 50 təsərrüfatda sorğu aparır və nəticələrini yanvar ayının 5-dək BHM-nə ötürür. Yerli statistika orqanları 24-a-kt №-li müşahidə formasının yekun məlumatları əsasında rayondakı fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında mal-qara və quşların orta illik məhsuldarlıq göstəriciləri barədə məlumatlar əldə edir. Sonra bu


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rashadb@azstat.org, +994 12 538 73 57

göstəricilər vasitəsilə ilin əvvəlinə keçirilmiş mal-qara və quşların uçotu məlumatlarından istifadə etməklə bütövlükdə rayonun fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında istehsal olunan heyvandarlıq məhsullarının miqdarını hesablayır. Bu məlumatlar da xüsusi proqramla yanvar ayının 5-dək Baş Hesablama Mərkəzinə ötürülür. BHM, rayonlar üzrə ilkin məlumatları bülleten şəklində nəşr edərək yanvar ayının 28-dək Aparatın Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinə təqdim edir. Mal-qaranın sayı barədə təsərrüfat kateqoriyaları üzrə son, dəqiq məlumatlar BHM tərəfindən 11 fevral tarixində, heyvandarlıq məhsullarının istehsalına dair son məlumatlar isə mart ayının 29-dək Aparatın Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinə təqdim edilir. Bununla da heyvandarlıq statistikasına dair məlumatların toplanması prosesi başa çatır. Əldə edilmiş məlumatlar ilkin olaraq "Statistik nəşrlər kataloqu"na uyğun olaraq aprel ayında Məlumatların yayılması şöbəsi tərəfindən hazırlanan "Azərbaycan rəqəmlərdə", "Azərbaycan-faktlar və rəqəmlər", avqust ayında "Azərbaycanın statistik göstəriciləri", sentyabr ayında "Azərbaycanın regionları" adlı məcmuələrdə dərc edilir. Lakin adı çəkilən nəşrlərdə heyvandarlıq statistikasına dair məlumatların sadəcə bir qismi əks olunur. Avqust ayında şöbə tərəfindən nəşr olunan "Azərbaycanın kənd təsərrüfatı" adlı statistik məcmuədə mal-qara və quşların sayı, növlər üzrə ət və süd, yumurta və yun istehsalı barədə məlumatlar rayonlar və təsərrüfat kateqoriyaları üzrə əks olunur. Beləliklə, hesabat dövrünün sonuncu günündən yekun nəticələrin nəşr gününə qədər olan müddət 24-kt №-li hesabat forması və 24-a-kt №-li müşahidə forması üzrə 208 gün təşkil edir.

*2012-ci il üzrə* ***V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)*** *göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 2***

| | 24-kt №-li hesabat forması üzrə | 24-a-kt №-li müşahidə forması üzrə |
|---|---|---|
| Hesabat dövrü | 05.01.2012 | 05.01.2012 |
| Nəşr tarixi | 06.07.2012 | 06.07.2012 |
| Aralıq vaxt, təqvim günü | 183 | 183 |
| Aralıq vaxt, iş günü | 122 | 122 |

*2012-ci il üzrə **V3** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

***Cədvəl № 3***

| | 24-kt №-li hesabat forması üzrə | 24-a-kt №-li müşahidə forması üzrə |
|---|---|---|
| Hesabat dövrü | 05.01.2012 | 05.01.2012 |
| Elan edilmiş nəşr tarixi | avqust 2012-ci il | avqust 2012-ci il |
| Faktiki nəşr tarixi | 06 iyul 2012-ci il | 06 iyul 2012-ci il |
| Aralıq vaxt (laq) | -26 | -26 |

## 5. Bərabər giriş və aydınlıq

Heyvandarlıq statistikasına dair yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların alınması prosesi başa çatdıqdan sonra ekspress-məlumat, təhlili məruzə, statistik məcmuə hazırlanır. "Azərbaycanın kənd təsərrüfatı" adlı statistik məcmuə Komitənin veb-səhifəsində yerləşdirilir. http://www.stat.gov.az/source/agriculture/. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir http://www.azstat.org/MESearch/search?departament=5&lang=az.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) veb-səhifəsindəki məlumat bazasında da göndərilmiş sorğular əsasında Azərbaycan Respublikası üzrə mal-qara və quşların sayı, heyvandarlıq məhsullarının istehsalına dair məlumatlar yerləşdirilir http://faostat3.fao.org/home/index.html#VISUALIZE.

Komitənin veb-səhifəsində Metaməlumatlar bölməsində heyvandarlıq statistikası üzrə əsas göstəricilərə və hesabat formalarına dair metaməlumatlar (http://www.azstat.org/MetaDataG/ və http://www.azstat.org/MetaDataW/)) yerləşdirilmişdir.

Bundan başqa, Komitənin veb-səhifəsində E-hesabatlar bölməsində heyvandarlıq statistikası üzrə hesabat formaları və onların doldurulmasına dair metodoloji izahlar mövcuddur http://www.azstat.org/f_st_relat/az/008.shtml.

### *Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr*

*Cədvəl № 4*

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Nəşr olunan statistik məcmuə “Azərbaycanın kənd təsərrüfatı” | http://www.stat.gov.az/source/agriculture/ |
| 3 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=5&lang=az |
| 4 | BMT-nin Ərzaq və Kənd Təsər-rüfatı Təşkilatı (FAO) tərəfindən Dövlət Statistika Komitəsinə göndərilən sorğulara cavablar | http://faostat3.fao.org/home/index.html#VISUALIZE |
| 5 | “Azərbaycan rəqəmlərdə” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 6 | “Azərbaycanın regionları” | http://www.stat.gov.az/source/regions/ |
| 7 | “Azərbaycanın statistik göstəriciləri” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | “Azərbaycanın ərzaq balansları” | http://www.stat.gov.az/source/food_balances/ |

### *BA1. Kağız məcmuələr üçün abunələrin və sifarişlərin sayı*

Heyvandarlıq statistikasına dair məlumatlar kağız formasında Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi tərəfindən hazırlanan “Azərbaycanın kənd təsərrüfatı” adlı statistik məcmuə vasitəsilə təqdim olunur. Məcmuə 250 nüsxədə çap olunur ki, onlardan:

- 40 nüsxə rəhbər orqanlara, nazirlik, komitə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
- 180 nüsxə Dövlət Statistika Komitəsinin rəhbərliyinə, şöbələrə, kitabxanaya və yerli statistika orqanlarına;
- 20 nüsxə digər istifadəçilərə (elmi-tədqiqat institutlarına və s.) paylanılır;
- 10 nüsxə şöbədə istifadə üçün saxlanılır.

### *BA2. Onlayn məlumat bazasına girişlərin sayı*

http://www.stat.gov.az/link_click_counter/-də kənd təsərrüfatına dair statistik məhsullardan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Heyvandarlıq statistikasına dair məlumatlar hesabat və müşahidə formaları vasitəsilə toplanılır. 2009-cu ildən bu formalarda milli Məhsul Növləri Təsnifatının (MNT) 3-cü versiyasından istifadə olunur. Bu təsnifat Avropa İqtisadi Birliyinin Statistika Komissiyası tərəfindən hazırlanmış və tətbiqi bu birliyə daxil olan bütün ölkələr üçün məcburi sayılan ölkələrində istifadə olunan CPA-2008 (MNT-Məhsul Növləri Təsnifatı) əsasında hazırlanmışdır. Milli təsnifatda eyni zamanda BMT və digər beynəlxalq təşkilatlar tərəfindən istifadə olunan CPC və HS təsnifatlarına keçidlər də verilmişdir. Bu səbəbdən beynəlxalq təşkilatlardan daxil olan sorğuların doldurulmasında və ölkə üzrə məlumatların digər ölkələrin məlumatları ilə müqayisə edilməsində heç bir çətinlik yaranmır.

***UM1. Verilmiş dinamika sırasının uzunluğu***

***Cədvəl № 5***

| Sıra №-si | Göstəricinin adı | Dinamika sırasının başlanğıc və bitmə dövrü, il |
|---|---|---|
| 1 | İri buynuzlu mal-qaranın sayı | 1916,1921,1928,1932,1934-2012 |
| 2 | İnək və camışların sayı | 1916,1921,1928,1932,1934-2012 |
| 3 | Qoyun və keçilərin sayı | 1916,1921,1928,1932,1934-2012 |
| 4 | Donuzların sayı | 1916,1921,1928,1932,1934-2012 |
| 5 | Quşların sayı | 1950,1951, 1954-2012 |
| 6 | Ət istehsalı-cəmi, kəsilmiş çəkidə | 1913,1940,1945-2012 |
| 7 | Növlər üzrə ət istehsalı, kəsilmiş çəkidə | 1913,1940,1945, 1950-2012 |
| 8 | Süd istehsalı-cəmi, fiziki çəkidə | 1913,1940,1945-2012 |
| 9 | Növlər üzrə süd istehsalı, fiziki çəkidə | 1913,1940,1945, 1950-2012 |
| 10 | Yumurta istehsalı | 1913,1940,1945-2012 |
| 11 | Yun istehsalı | 1913,1940,1945-2012 |
| 12 | Heyvandarlıq üzrə ümumi məhsul | 1990-2012 |

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin Kənd təsərrüfatı statistikası sektoru BHM-nin Kənd təsərrüfatı və ekologiya statistikası məlumatlarının işlənməsi şöbəsi ilə birlikdə statistik müşahidənin bütün mərhələlərində hər bir keyfiyyət

aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir.
Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və məntiqi və riyazi yoxlama üsulu ilə mümkün olan digər mənbələrlə müqayisə edilərək məlumatların dürüstlüyü yoxlanılır.
Vaxtlı-vaxtında olma aspekti üzrə müşahidə ilə bağlı bütün işlər Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsinin iş planına uyğun olaraq həyata keçirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə tərəfindən müşahidənin nəticələri nəşr olunduqdan sonra müəyyən olunmuş siyahı üzrə və istifadəçi prioriteti gözlənilmək şərtilə məlumatlar istifadəçilərə çatdırılır.
İstifadəçi tələbatlarını öyrənmək məqsədilə mütəmadi olaraq əsas istifadəçilərdən olan Kənd Təsərrüfatı və İqtisadi İnkişaf nazirlikləri, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssisləri üçün seminarlar təşkil olunur. Bu seminarlarda istifadəçilərlə fikir mübadıləsi aparılır, tövsiyə olunan təkliflər araşdırılır və nəticələrin yaxşılaşdırılmasına xidmət edən təkliflər tətbiq olunur. Sonuncu dəfə şöbə tərəfindən 19 aprel 2012-ci il tarixində istifadəçilər üçün "Kənd təsərrüfatı və ekologiya statistikası üzrə göstəricilər sistemi" mövzusunda seminar təşkil olunmuşdur.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək məqsədilə bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.
Hazırda 24-kt illik hesabat forması və 24-a-kt №-li rüblük müşahidə forması statistik vahidlər tərəfindən kağız daşıyıcılarda yerli statistika orqanlarına təqdim edilir.
Növbəti ildən başlayaraq məlumatların toplanmasında informasiya texnologiyalarının imkanlarından daha geniş şəkildə istifadə edilməsi nəzərdə tutulub. Belə ki, 24-kt №-li hesabat forması üzrə məlumatların onlayn rejimində qəbulu təmin olunacaq. Bu isə

müşahidə vahidlərinin, yerli statistika orqanlarının və şöbənin əməkdaşlarının vaxtına qənaət edilməsinə, vaxtında və keyfiyyətli məlumatların əldə edilməsinə imkan verəcək. Bununla da, həm statistika orqanlarında çalışan işçilərə, həm də respondentlərə düşən yükün azaldılması üçün əlverişli şərait yaranacaq.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının qanununun 16-cı maddəsinə əsasən, rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## 11. Yekun

Heyvandarlıq statistikasına dair məlumatların istehsalı prosesində keyfiyyətin yüksəldilməsi istiqamətində işlərin daim davam etdirilməsi məqsədəuyğun hesab edilir. Hər il mütəmadi olaraq istifadəçilərlə görüş zamanı heyvandarlıq statistikasına dair məlumatların keyfiyyətinin artırılması, hesabat formalarının təkmilləşdirilməsi, respondentlərə düşən yükün azaldılması və məlumatların yayımlanması sahəsində fikir mübadiləsi aparılır. İrəli sürülən təkliflər ətraflı araşdırılır və səmərəli olanları qəbul edilərək gələcəkdə işdə tətbiq edilir.